**AZƏRBAYCAN RESPUBLİKASININ**
**SƏHİYYƏ NAZİRLİYİ**

AZ1022 Bakı, Nəsimi rayonu, M.Mirqasımov küç., 1A
Tel.: (+994 12) 598 50 94 Faks: (+994 12) 493 06 95
www.health.gov.az
Elektron ünvan: office@health.gov.az


21.02.2013 № 15

№-zə ____________

# ƏMR

**"Poliomielitin ləğvinin sertifikasiyası və qızılca, məxmərəyin eliminasiyasının verifikasiyası üzrə Milli Komitənin yaradılması barədə"**

Ümumdünya Səhiyyə Təşkilatının təşəbbüsü ilə həyata keçirilən proqramlar çərçivəsində Azərbaycan Respublikasında poliomielitin ləğvinin sertifikasiyası və qızılca, məxmərəyin eliminasiyasının sənədləşdilirməsi və verifikasiyası məqsədilə

**ƏMR EDİRƏM:**

1. Aşağıda göstərilən tərkibdə poliomielitin ləğvinin sertifikasiyası və qızılca, məxmərəyin eliminasiyasının verifikasiyası üzrə Milli Komitə yaradılsın:

| | |
|---|---|
| -Nəsib Quliyev | Elmi-tədqiqat Pediatriya İnstitutunun direktoru, t.e.d., professor, sədr; |
| -Şeyda Şıxəliyeva | Respublika Taun Əleyhinə Stansiyasının mikrobioloqu, b.e.n.; |
| -Leyla Bağırova | Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun yoluxucu xəstəliklər kafedrasının həkim-infeksionisti. |

2. Milli Komitənın sədri N.Quliyevə tapşırılsın ki, Milli Komitənın fəaliyyəti Ümumdünya Səhiyyə Təşkilatının Avropa Regional Bürosu tərəfindən müəyyən edilmiş qaydaya təşkil edilsin.

3. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin "Poliomielitə görə ərazilərin sertifikasiyalaşdırılması üçün Milli Komitənin təşkili barədə" 04.02.1998-ci il tarixli 21 nömrəli əmri qüvvədən düşmüş hesab edilsin

4. Əmrin icrasına nəzarət Sanitariya-epidemioloji nəzarəti sektorunun müdiri Viktor Qasımova həvalə edilsin.

**Nazir müavini** **Abbas Vəlibəyov**